# Heydər Əliyev Azərbaycanın inkişafının möhkəm bünövrəsini yaradıb

**Noyabrın 30-da parlamentin Regional məsələlər komitəsinin iş planına əsasən, Milli Məclisdə deputatların, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisinin, Bakı şəhərinin və bir sıra rayon bələdiyyələrinin sədrlərinin və digər mərkəzi icra hakimiyyəti orqanlarının təmsilçilərinin, eyni zamanda mətbuat və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə "Azərbaycanda yerli demokratiyanın, özünüidarəetmənin və regionların inkişafında Heydər Əliyev irsi" mövzusunda ictimai dinləmə keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri giriş sözü ilə açan Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına uyğun olaraq bu ilin "Heydər Əliyev İli" elan edilməsini xalqımızın tarixində mühüm hadisə adlandırıb.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən söz açan komitə sədri qeyd edib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi nadir şəxsiyyətlərdən biridir. Onun ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycanda sosial, iqtisadi, elmi, mədəni və digər sahələrdə ciddi uğurlar əldə olunmaqla yanaşı, regionların inkişaf etdirilməsi və yerli özünüidarəetmə sahələrində də əməli addımlar atılıb. Bildirilib ki, həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi inkişafı istiqamətində Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevrilib. Məhz o illərdə güclü sənaye potensialı yaradılıb, respublikamızın müxtəlif rayonlarında çoxsaylı zavod və fabriklər tikilib, irimiqyaslı infrastruktur layihələri icra edilib.

Sonrakı dövrlərdə də xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində milli dövlətçilik ənənələrinin qorunub-saxlanmasına, demokratik dəyərlərin inkişaf etdirilməsinə, əhalinin rifah halının yaxşılaşdırılmasına, həmçinin regionların sosial-iqtisadi inkişafına, yerli özünüidarəetmə institutunun formalaşdırılmasına xüsusi önəm verib.

Komitə sədri qeyd edib ki, Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən 20 il dövlətimizin və xalqımızın taleyində yeni inkişaf mərhələsinin başlanğıcı olub. Bu dövr ərzində regionların sosial-iqtisadi inkişafı üzrə 4 dövlət proqramının uğurla həyata keçirildiyini deyən Siyavuş Novruzov bu proqramların regionların inkişafında mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, bu illər ərzində Azərbaycanda 3500-dən çox məktəb, 700-dən çox xəstəxana, 40-dan artıq olimpiya kompleksi tikilib istifadəyə verilib.

Bildirilib ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoymuş 44 günlük Vətən müharibəsi və bu ilin sentyabr ayında həyata keçirilmiş lokal antiterror tədbirləri Azərbaycan ərazilərinin işğaldan azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnib. Qeyd olunub ki, Azərbaycan hökuməti bu ərazilərdə irimiqyaslı bərpa-quruculuq işlərinə başlayıb, müasir səviyyəli beynəlxalq hava limanları, evlər, məktəblər, elektrik qovşaqları, yollar və digər infrastruktur layihələri uğurla icra olunur.

Tədbirdə Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov "Heydər Əliyev Azərbaycanda regional inkişaf siyasətinin müəllifidir" mövzusunda çıxış edərək deyib ki, bugünkü ictimai dinləmənin Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə, "Heydər Əliyev İli" çərçivəsində keçirilməsi rəmzi xarakter daşıyır. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza sədaqətlə xidmət edərək respublikanın gələcək uğurlu inkişafının təməlini qoyub. Heydər Əliyev ölkəmizin regional inkişaf siyasətinin müəllifi olaraq, regionlarımızın davamlı inkişafına, yerlərdə səmərəli dövlət idarəçiliyinin və yerli özünüidarəetmənin qurulmasına, bölgələrdə yaşayan əhalinin rifah halının yaxşılaşdırılmasına böyük töhfələr verib.

Məhz Heydər Əliyevin təşəbbüsü və müəllifliyi ilə qəbul olunmuş milli Konstitusiyamızda yerlərdə icra hakimiyyətinin və yerli özünüidarəetmənin əsasları və statusu müəyyən edilib. 1999-cu ildə ilk bələdiyyə seçkilərinin keçirildiyini deyən Kamran Bayramov bildirib ki, keçən dövr ərzində regional inkişaf siyasətinin həyata keçirilməsi üçün, habelə bələdiyyələrin statusunu, səlahiyyətlərini, hüquq və vəzifələrini müəyyən edən çoxsaylı qanunlar qəbul edilib.

Heydər Əliyevin davamçısı, Prezident İlham Əliyev 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramlarının həyata keçirilməsinə start verdiyini deyən millət vəkili bu proqramların uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin simasının köklü şəkildə dəyişdiyini, regionların iqtisadi potensialının artdığını, infrastruktur təminatının, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşdığını, əhalinin rifah halının yüksəldiyini bildirib.

Qeyd olunub ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun rəşadəti sayəsində Vətən müharibəsində qazanılan tarixi qələbə isə torpaqlarımızın işğalına son qoymaqla, ölkəmizin regional inkişaf siyasətində köklü dəyişikliklərin aparılmasını zəruri edib. Bu gün işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

"Heydər Əliyevin ölkəmizdə yerli demokratiyanın inkişafında rolu" mövzusunda çıxış edən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov qeyd edib ki, mühüm hadisələrlə zəngin 2023-cü il ilk növbədə "Heydər Əliyev İli" kimi tariximizə həkk olunacaq. O deyib ki, Ümummilli Lider Heydər Əliyev yerli özünüidarəetmənin təşkilini demokratik, hüquqi dövlət quruculuğunun vacib, ayrılmaz tərkib hissəsi kimi qiymətləndirib.

Qeyd olunub ki, Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin fərman və sərəncamları ilə qəbul olunan dövlət proqramlarında, milli fəaliyyət planlarında yerli özünüidarəetmənin təkmilləşməsi, bu sahədə şəffaflığın, hesabatlılığın artırılmasına yönəlmiş mühüm tapşırıq və tövsiyələr yer alır.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Ədliyyə Nazirliyi və onun qurumları tərəfindən də silsilə tədbirlərin həyata keçirildiyini deyən mərkəzin rəisi, Ədliyyə Nazirliyinin 2021-2023-cü illər üzrə Kommunikasiya Strategiyasında müəyyənləşdirilmiş bir sıra hədəflərdən söz açıb, "Bələdiyyələrlə iş portalı"nın istifadəyə verildiyi, bələdiyyələrin vergi işinin səmərəli təşkilində əhəmiyyətli rolu olan BAMS adlı yeni proqram təminatının yaradıldığı barədə məlumat verib.

Abşeron rayonu, Xırdalan bələdiyyəsinin sədri Orxan Musayev "Heydər Əliyev yerli özünüidarəetmə institutunun banisidir" mövzusunda çıxış edərək bu dinləmənin Azərbaycan dövlətinin və müasir tariximizin yaradıcısı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində keçirilməsini yüksək qiymətləndirib.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə Konstitusiyanın qəbul edilməsini müstəqil Azərbaycan dövlətinin qurulması prosesində Ulu Öndərin ən böyük xidmətlərindən biri olduğunu deyən bələdiyyə sədri Ana qanunumuzda müasir dövlət quruculuğu üçün vacib olan bütün bəşəri prinsiplərin əks olunduğunu qeyd edib. O deyib ki, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" və "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və digər qanunların qəbulu yerli özünüidarəetmənin inkişafında mühüm rol oynayıb. Bu gün Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli maraqlar, sosial ədalət və demokratiya siyasətinə söykənən müasir idarəetmə modelində bələdiyyələr özünəməxsus yerə malikdirlər.

Ulu Öndər Heydər Əliyev siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsindəki fəaliyyətini xüsusi vurğulayan bələdiyyə sədri deyib ki, bu gün qalib Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında öz sosial-iqtisadi, siyasi və mədəni inkişafının ən yüksək dövrünü yaşayır.

Tədbirdə deputatlar Ziyad Səmədzadə, Naqif Həmzəyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Səbinə Xasayeva, Rauf Əliyev, İlham Məmmədov, Cavid Osmanov, Etibar Əliyev, Müşfiq Cəfərov, Arzu Nağıyev, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Fərid Əliyev və Bakı şəhəri Nərimanov Rayon Bələdiyyəsinin sədri Təmraz Tağıyev çıxış edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin siyasi irsi barədə fikirlərini bildiriblər, onun hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərdiyini, həmin dövrlərdə ölkə həyatının bütün sahələrinin inkişaf etdiyini deyiblər.

Tədbirə yekun vuran Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov belə dinləmələrin keçirilməsinə şərait yaratdığına görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib. O, dinləmədə səsləndirilən fikirlərin ölkəmizdə yerli özünüidarəetmənin və regionların inkişafı istiqamətində görülən işlərin daha da təkmilləşməsinə öz müsbət töhfəsini verəcəyinə inamını ifadə edib.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.-1 dekabr, № 262.- S.5.